ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5 (18) ss. 442-455

Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5 (18) pp. 442-455

Araştırma Makalesi
Original Article

# Gürcü Çarı Qurucu Davidin İşğalları Dövründə Şəki Torpaqları

**Şirinbəy Əliyev**[°]

**ORCID: 0000-0002-1235-3634**

## Xülasə

Abxaz-Kartli çarı Qurucu David XI əsrin sonlarında ölkəsinin qüdrətini bərpa etməyə və xalqın yadellilərə qarşı mübarizədə qələbəyə inamını özünə qaytarmağa nail oldu. Gürcü mənbəsinə görə, 1097-ci ildə Qurucu David səlcuq sultanına xərac ödəməyi dayandırdı və artıq səlcuqlar Kartlidə qışlaya bilmədilər. Bu isə Abxaz-Kartli çarlığının sultandan asılılığının aradan qalxması demək idi. Ölkədə səlcuq ağalığına son qoyan Qurucu David qonşu dövlətləri, xüsusilə də Tiflis müsəlman əmirliyini, Şəki (Hereti-Kaxeti) çarlığını və Şirvanşahlar dövlətini ələ keçirmək istiqamətində ciddi hazırlıqlara başladı.Xilafətin süqutundan sonra Albaniyanın qanuni varisi kimi meydana gəlmiş və "albanların çarı" titulunu özündə saxlayan Şəki çarlığı 886-1104-cü illərdə, təxminən 230 ildən çox mövcud olmuşdur. Kürdən şimala Qəbələdən Telaviyədək torpaqları əhatə edən Şəki çarlığının ərazisi 1014-cü ildə Kaxeti knyazlığı ilə siyasi birləşmədən sonra qərbdə Araqvi çayınadək uzanmışdı. Müvafiq dövrdə Azərbaycanda yaranmış digər feodal dövlətləri (Sacilər, Salarilər, Rəvvadilər, Şirvanşahlar, Şəddadilər) sırasında Şəki çarlığı əhalisinin böyük əksəriyyətinin  xristian olması ilə seçilirdi. 1101-ci ildə Şəki çarlığına qarşı başlatdığı ilk lokal xarakterli hərbi əməliyyatlardan sonra, Qurucu David 1104-1117-ci illərdə bəzi yerli Şəki feodal qruplarının köməkliyi ilə Şəki çarlığının ərazisini ələ keçirməyə müvəffəq olmuşdu. Abxaz-Kartli çarı Qurucu Davidin güclənərək, öz ölkəsinin hüdudlarından kənarda səlcuqları sıxışdırmağa başlaması sultanı və Gəncə atabəyini Şəki ölkəsinə hərbi müdaxilə etməyə vadar etmişdi. Lakin Ersuxi savaşında Qurucu David səlcuqlar üzərində ilk böyük qələbəsini qazana bilmişdi. İşğaldan sonra, Qurucu David, özünün "abxazlar və kartvellər çarı" tituluna "ranların/albanların və kaxların çarı" titulunu əlavə etmişdi. Müsəlman qaynaqlarında isə o, "Abxaz, Şəki, Alan.... çarlar çarı" kimi qeyd olunur. Qurucu Davidin işğalçı yürüşləri nəticəsində Şimal-Qərbi Azərbaycan torpaqlarında yaranmış və 230 ildən çox mövcud olan Şəki çarlığı süqut etmiş, Abxaz-Kartli çarlığının tərkibinə qatılmış, onun ərazisində iki hərbi-inzibati dairə: Şəki/Hereti eristavlığı və Kaxeti eristavlığı yaradılmışdı. Qurucu David keçmiş Şəki çarlığı əhalisindən (mənbədə herlər və kaxlar) ibarət böyük qoşun dəstələri düzəldərək öz ordularının tərkibinə daxil etmişdi.

**Açar sözlər**: Şəki, feodal, gürcü çarı, savaş, işğal

**Gönderme Tarihi: 17/11/2018** **Kabul Tarihi:10/12/2018**

[°] *Bakı Slavyan Universiteti,E-Posta:eliyevshirinbey@rambler.ru,*

© 2018 ATDD Tüm Hakları Saklıdır

# Sheki Area During the Invasion of the Georgian Czar David the Builder


## Abstract

At the end of the 11th century, the Abkhaz-Kartli Czar David the Builder was able to restore his country's power and regain the self-confidence of the people in the fight against strangers. According to the Georgian source, David the Builder stopped paying tribute to the Sultan of Seljuk in 1097, and the Seljuks could no longer spend the winter in Kartli. This meant the elimination of Abkhaz-Kartli Czar's dependence on Sultan. David the Builder, who put an end to supremacy of the Seljuks in the country, had begun serious preparations to seize neighboring states, especially the Tiflis Muslim Emirate, Sheki (Hereti-Kakheti) realm and the Shirvanshahs state.The Sheki realm, which emerged as the legitimate successor of Albania after the fall of the Caliphate and occupied the title of the "Albanian Czar", existed for about 230 years, in 886-1104. The territory of the Sheki realm, covering the areas from the Kur River to the north from Gabala to Telavi, was extended to the Aragvi River in the west after the political unification with the Kakheti prince in 1014. Among other feudal states (Sajids, Salaris, Ravvadis, Shirvanshahs, Shaddadis) emerged in Azerbaijan at that time, the Sheki realm was distinguished by majority of Christian population.After the first local military campaigns against the Sheki realm in 1101, David the Builder was able to capture the territory of the Sheki realm with the help of some local feudal groups of Sheki in 1104-1117. The Abkhaz-Kartli czar, David the Builder began to exacerbate the Seljuks outside his home country and to force Ganja Atabey to military intervention on Sheki. But in the Ertsukhi battle, David the Builder was able to win his first big victory over the Seljuks. After the occupation, David the Builder added the title of "the Czar of Rans / Albanians and Kakhs" to his title "the Czar of Abkhazes and Kartvels. In Muslim sources, he is mentioned as "the Czar of Czars of Abkhaz, Sheki, Alan..." As a result of David the Builder's invasive campaigns, the Sheki realm emerged on the territory of North-West Azerbaijan and existed for more than 230 years fell and was added to the Abkhaz-Kartli czardom, which included two military-administrative districts: Sheki / Heretian eristavrate and Kakheti eristavrate. David the Builder incorporated large armies from the peoples of the former Sheki realm (in the source Hers and the Kakhs) into his armies.



**Keywords:** Sheki, feudal, Georgian czar, war, occupation

**Received Date: 17/11/2018** **Accepted Date: 10/12/2018**

# ШЕКИНСКИЕ ЗЕМЛИ В ПЕРИОД ЗАВОЕВАНИЙ ГРУЗИНСКОГО ЦАРЯ ДАВИДА-СТРОИТЕЛЯ

## РЕЗЮМЕ

Абхазско-Картлийскй царь Давид-Строитель в конце XI века в борьбе с иноземными захватчиками добился восстановления могущества своей страны и возвратил веру народа в победу. Согласно грузинским источникам, Давид-Строитель с 1097 года перестал платить дань сельджукскому султану и сельджуки больше не остались зимовать в Картли. Это означало ликвидацию зависимости Абхазско-Картлийского царства от сельджуков. Покончив с господством сельджуков, Давид-Строитель начал готовиться к захвату земель Тифлисского мусульманского эмиратства, Шекинского княжества и государства Ширваншахов.Шекинские княжество, образованное после падения Арабского халифата, по праву являющаяся наследницей Албании и носившее титул "албанских князей", существовала в период 886-1104 гг., то есть около 230 лет. Границы Шекинского княжества, охватывавшие земли от Габалы до Телави, после политического объединения с Кахетией в 1014 году, стали простираться на западе до реки Арагви. Большинство населения Шекинского княжества, по сравнению с другими государствами (Саджиды, Салариды, Ширваншахи, Шаддадиды, Раввадиды), образованными в Азербайджане после распада Халифата, составляли христиане. После начала первых локальных военных операций против Шекинского княжества в 1101 году, Давид-Строитель с помощью некоторых Шекинских феодальных групп в 1104-1117 гг. сумел захватить территорию всю Шекинского княжества. Усиление Абхазско-Картлийского царя Давида-Строителя и вытеснение им сельджуков с территории своей страны, вынудили султана и Гянджинского атабека начать военное вторжение в пределы Шекинского княжества. Однако в битве при Эрсухи Давид-Строитель сумел одержать первую большую победу над сельджуками. После этих захватов Давид-Строитель добавил к своему титулу "царя картвелов и абхазов" титул "царя ранов/албанов и кахов". В мусульманских же источниках он упоминается как «Царь царей Абхазии, Шеки, Алан ...". В результате завоевательных походов Давида-Строителя на территорию северо-западного Азербайджана, просуществовавшая около 220 лет Шекинское княжество пала, войдя в состав Абхазско-Картлийского царства, где на её территориях были образованы два военно-административных округа: Шекинское /Эретинское и Картлийское эриставства. Давид-Строитель создал из населения бывшего Шекинского княжества (по источникам херы и кахи) крупные военные силы, которые включил в состав своей армии.

**Ключевые слова:** Шеки, феодальный, грузинский царь, война, оккупация.

**Получено: 17/11/2018** **Принято: 10/12/2018**

## Giriş

Hələ 1089-cu ildə Abxaz-Kartli çarı II Georgi iri feodalların təzyiqi altında taxt-tacdan oğlu IV Davidin xeyrinə imtina etmişdi. Bəzi müasir tədqiqatçılar bu hadisəni "saray çevrilişi" kimi təqdim edirlər.[1] Səlcuq yürüşləri nəticəsində var-yoxdan çıxmış və talanmış ölkədə çarlıq taxtında əyləşən IV David (1089-1125) hakimiyyətinin ilk günlərindən bütün səylərini ölkəsinin dirçəlməsinə yönəltdi. Yorulmaq bilmədən apardığı quruculuq işləri, həyata keçirdiyi çoxsaylı islahatlar nəticəsində o, tarixin səhifələrinə Qurucu David kimi həkk olundu. Dövlət quruculuğu, kilsə, hərbi və digər mühüm əhəmiyyətli sahələrdə müvəffəqiyyətlə apardığı çoxsaylı islahatlar ona ölkəsindəki bütün qüvvələri səfərbər etməyə imkan verdi.[2] Mərkəzi hakimiyyəti gücləndirmək sayəsində o, qiyamçı feodallarla çox sərt rəftar edərək onları birdəfəlik susdurmağa müvəffəq oldu.[3] Bu yolda böyük çətinliklərlə qarşılaşmasına baxmayaraq, Qurucu David XI əsrin sonlarında Abxaz-Kartli çarlığının qüdrətini bərpa etməyə və xalqın yadelli işğalçılara qarşı mübarizədə qələbəyə inamını özünə qaytarmağa nail oldu.

Bu dövrdə Yaxın Şərqdə baş verən hadisələr də Qurucu Davidin xeyrinə idi. 1092-ci ildə səlcuq sultanı Məlik şahın ölümündən (37 yaşında) sonra, onun varisləri arasında hakimiyyət uğrunda uzun müddət davam etmiş mübarizə qızışdı.[4] Digər tərəfdən, 1096-cı ildən etibarən Avropa cəngavərlərinin Yaxın Şərqə istiqamətlənən işğalçı səlib (xaç) yürüşlərinin başlanması ilə regionda vəziyyət xeyli dəyişildi. Bir-birinin ardınca ağır zərbələr alan və Yaxın Şərq

---

[1] Ş.A.Mesxia, *Didgorskaya bitva*, Tbilisi, Metsniereba, 1974, s.26; K. Qriqoliya, *O çem povedala "Kartlis Tsovreba*", Tiflis, Qanatleba, 1973, 58.

[2] Ş.A. Mesxia, a.g.e., 26-42.

[3] K. Qriqoliya, a.g.e., 58.

[4] Öztuna Yılmaz, *İslam Devletleri*, c. I, Kültür Bakanlığı Yayınları, Ankara,1989, 481; Ş.A. Mesxia, a.g.e., 26.

ölkələrindən sıxışdırılıb çıxarılan səlcuq-türklərinin qüdrəti sarsıdılmışdı.[5] Vahid səlcuq dövlətinin tənəzzülü, parçalanmış və bir-biri ilə düşməncilik edən səlcuqlara əvvəlki kimi güc nümayiş etdirməyə imkan vermirdi.

Gürcü mənbəsinə görə, belə bir şəraitdə - 1097-ci ildə (bəzi tədqiqatçılara görə 1099-cu ildə) Qurucu David səlcuq sultanına xərac ödəməyi dayandırdı və artıq səlcuqlar Kartlidə qışlaya bilmədilər.[6] 15 ildən çox müddət ərzində səlcuqlara verilən illik xəracdan imtina edilməsi ölkə iqtisadiyyatının dirçəlməsi, qarət olunmuş və boşalmış xəzinənin doldurulması baxımından mühüm tədbir olmaqla yanaşı, faktiki olaraq, Abxaz-Kartli çarlığının sultandan asılılığının aradan qalxması demək idi.

Sözü gedən hadisələr şifahi xalq ədəbiyyatımızın tacı olan əvəzolunmaz tarix salnaməmiz "Kitabi-Dədə Qorqud" dastanında da öz əksini tapmışdır. "Kitabi-Dədə Qorqud" dastanına ilk dəfə "bir tarixi mənbə kimi yanaşan"[7] görkəmli tədqiqatçı-alim Y.M. Mahmudov bu barədə yazır: "Bu dövrdə müstəqilləşən Gürcüstan çarlığı Oğuza xərac verməkdən imtina etmiş və ona meydan oxumağa başlamışdı. Bu tarixi gerçəklik dastanın "Bəkil oğlu İmran boyu"nda çox aydın verilib.[8] Ölkədə səlcuq ağalığına son qoyan Qurucu David sələflərinin başa çatdıra bilmədiyi digər mühüm problemin həllinə girişdi. Qurucu David qonşu dövlətləri, xüsusilə də Tiflis müsəlman əmirliyini və Şəki (Hereti-Kaxeti) çarlığını ələ keçirmək istiqamətində ciddi hazırlıqlara başladı.[9]

**Əsas hissə**

Xilafətin süqutundan sonra Albaniyanın qanuni varisi kimi meydana gəlmiş və "albanların çarı" titulunu özündə saxlayan Şəki çarlığı 886-1104-cü illərdə,

---

[5] *Orta əsrlər tarixi*, Tərcümə edəni Y.M. Mahmudov, Bakı, Təhsil, 1986.
[6]*Kartlis tsxovreba*, c. I, Tbilisi, 1955 (gürcü dilində), 326.
[7]Y.M. Mahmudlu, "Kitabi-Dədə Qorqud" tarixi mənbə kimi və ya türkün çağlayan tarix bulağı", *Altay dünyası*, 1997, № 1-2, 56.
[8] Y.M. Mahmudlu, a.g.m., s. 58; Y.M. Mahmudlu, *Azərbaycan tarixi intibah dövrü*, Altay dünyası, Bakı, 1996, 59.
[9] N. Berdzenişvili, İ. Cavaxişvili, S. Janaşia, *İstoriya Qruzii*, ç. I, S drevneyşix vremen do naçala XIX veka, Tbilisi, İzdatelstvo Qruzinskoy SSR, 1946, 191.

təxminən 230 ildən çox mövcud olmuşdur.[10] Kürdən şimala Qəbələdən Telaviyədək torpaqları əhatə edən Şəki çarlığının ərazisi 1014-cü ildə Kaxeti knyazlığı ilə siyasi birləşmədən sonra qərbdə Araqvi çayınadək uzanmışdı. Müvafiq dövrdə Azərbaycanda yaranmış digər feodal dövlətləri (Sacilər, Salarilər, Rəvvadilər, Şirvanşahlar, Şəddadilər) sırasında Şəki çarlığı əhalisinin böyük əksəriyyətinin xristian olması ilə seçilirdi.

Orta əsr gürcü mənbəsindən məlum olur ki, 1101-ci ildə Abxaz-Kartli çarı Qurucu David Şəki/Hereti hökmdarı IV Kvirikeyə (1082-1102) qarşı hərbi əməliyyatlara başlayır və Kaxetinin qərbində yerləşən strateji əhəmiyyətli Zedazadeni (Zedazan[11]) qalasını ələ kecirir.[12] Gürcü mənbəsi IV Kvirikeni "əsl xristian, cəsur, mərd və çarlığa layiq bir şəxs" kimi təqdim edir.[13] Görünür, IV Kvirikenin gürcü mənbəsində xüsusi olaraq vurğulanan yüksək keyfiyyətləri Qurucu Davidə hərbi əməliyyatlarını uğurla davam etdirməyə imkan verməmişdi. Bu hadisədən bir il sonra, 1102-ci ildə Şəki hökmdarı IV Kvirike vəfat etdi. Hakimiyyətə IV Kvirikenin qardaşı oğlu II Axsartan keçir.[14] Gürcü mənbəsi II Axsartanı ədəbsiz, müvazinətsiz, yüngülxasiyyət və çarlığa layiq olmayan şəxs kimi xarakterizə edir.[15]

Bəhs olunan dövrdə Abxaz-Kartli çarlığından fərqli olaraq, Şəki (Hereti-Kaxeti) çarlığı səlcuq sultanından vassal asılılığında olub illik xərac ödəməkdə davam edirdi. Bütün bunlar isə zəif iradəli və ölkə daxilində heç bir nüfuzu olmayan Şəki hökmdarı II Axsartanın vəziyyətini daha da ağırlaşdırırdı. Qonşu Abxaz-Kartli çarlığında baş verən proseslər isə Şəki (Hereti-Kaxeti) çarlığına münasibətdə təsirsiz qalmadı. Ölkə daxilindəki iri feodal qruplaşmaları yaranmış vəziyyətdən çıxış yolları aramaqda idilər. Kaxeti feodallarından fərqli olaraq, hakim Kvirikelər sülaləsinə inamını itirmiş Şəki/Hereti feodalları bu sülalənin mövcud problemləri aradan qaldıracağına inanmırdılar. Xüsusilə də ölkədə səlcuq ağalığına son qoyulmasında maraqlı olan və bunu səbirsizliklə gözləyən bir sıra Şəki/Hereti feodalları nəzərlərini qonşu Abxaz-Kartli çarlığında bu məsələni uğurla həll etmiş Qurucu Davidə çevirmişdilər.

Gürcü mənbəsi "Çarlar çarı Davidin həyatı"nı qələmə almış anonim müəllifin verdiyi məlumata görə, 1104-cü ildə Şəki/Hereti feodalları Arişian və Baram, onların dayısı Baram oğlu Kavtar II Axsartanı yaxalayıb Qurucu Davidə

---

[10] Şirinbəy Hacıəli, *Şimal-Qərbi Azərbaycan: İngiloylar*, Bakı, Təhsil, 2007, s.173.

[11] Vaxuşti Baqrationi, *İstoriya tsarstva Qruzinskoqo*, Perevel, snabdil predisloviyem, slovaryami i ukazatelem N.T. Nakaşidze, Tbilisi, Metsniereba, 1976, 129.

[12] *Kartlis tsxovreba*, 326.

[13] *Kartlis tsxovreba*, 326. Vaxuşti Baqrationi, a.g.e.,129.

[14] *Kartlis tsxovreba*, 326.

[15] *Kartlis tsxovreba*, 326. Vaxuşti Baqrationi, a.g.e., 129.

təhvil verdilər. Bununla Qurucu David Hereti və Kaxetini tutdu. [16]Təəssüflər olsun ki, gürcü mənbəsi sonuncu Şəki hökmdarı II Axsartanın harada, necə ələ keçirildiyi və Qurucu Davidə təhvil verildikdən sonra onun taleyi barədə heç bir məlumat vermir.

Qeyd etmək lazımdır ki, ölkənin siyasi səhnəsində baş verən belə mühüm prosesdən Kaxeti feodallarının kənarda qalmaları və məhz bəzi Şəki/Hereti feodallarının çarlığın varlığına son qoyacaq qəsdə müstəqil qərar vermələri, bir daha onların birləşmiş Şəki/Hereti-Kaxeti çarlığının siyasi həyatında oynadıqları mühüm rolu üzə çıxarırdı. Bununla belə, Şəki/Hereti feodallarının mühüm hissəsi Qurucu Davidin hakimiyyəti altına düşmək istəmir, uzun müddət (1104-1117) gürcü çarına qarşı müqavimət göstərmiş və onun hakimiyyətini qəbul etməmişdilər. Elə bu səbəbdən də Qurucu David Kaxetini asanlıqla ələ keçirdiyi halda, Şəki/Hereti ölkəsində gürcü işğalına qarşı mübarizə uzun müddət davam etmişdi.

Abxaz-Kartli çarı Qurucu Davidin güclənərək, öz ölkəsinin hüdudlarından kənarda səlcuqları sıxışdırmağa başlaması sultanı və Gəncə atabəyini Şəki ölkəsinə hərbi müdaxilə etməyə vadar etdi. Yuxarıda qeyd etdik ki, Şəki (Hereti-Kaxeti) çarlığı 1104-cü ilədək səlcuqların vassal asılılığında olub onlara illik xərac ödəyirdi. Qurucu David tərəfindən Şəki çarlığının ələ keçirilməsi isə bu ölkənin səlcuqların təsirindən çıxmasına, toplanan xəracın itirilməsinə, habelə Qurucu Davidin daha da güclənməsinə və səlcuqların regiondakı mövqelərinin zəifləməsinə səbəb ola bilərdi. Bu səbəbdən Qurucu Davidin qarşısını kəsmək məqsədilə Gəncə atabəyi qoşununu Şəki ölkəsinə yeritdi. Qurucu Davidə qarşı çıxan Kaxeti feodalları da Gəncə atabəyinin qoşunu ilə birləşdilər. Gürcü mənbəsinin verdiyi məlumata görə, 1104-cü ildə Ersuxidə (Heretidə yer[17]) qoşunlar qarşı-qarşıya gəldi: "...Ersuxidə isə onun (Davidin –Ş.Ə.) çox məhşurlaşan qələbəsi ilə nəticələnən böyük döyüş oldu: onda kiçik qoşunla və azsaylı qüvvə ilə o, sultanın sayagəlməz qoşununu məhv etdi; düşmənlərlə birlikdə bizi mühasirəyə alan Gəncə atabəyi və Kaxeti ölkəsindən olan döyüşçülərin böyük hissəsini, möcüzələr yaradan Allah, onun əlinə elə asan və tez verdi ki, nəinki biri minlərlə nəfəri təqib etdi, hətta şəxsən onları əsir götürdü, ikisi isə nəinki on minlərlə nəfəri qaçmağa vadar etdi, hətta xəndəklərdən və meşələrdəki sığınacaqlardan onların hamısını əsir tutub gətirdilər".[18]

Gürcü mənbəsi bir cəngavər kimi döyüşə atılan və hamıdan irəlidə gedərək döyüşçüləri arxasınca aparan çarın şəxsən göstərdiyi şücaətdən ətraflı bəhs edir. Döyüşün ağır keçdiyinə işarə edən anonim müəllif qeyd edirdi ki, həmin gün çar

---

[16]*Kartlis tsxovreba*, s. 328. *Kartlis tsxovreba (İstoriya Qruzii*), Tbilisi, İzdatelstvo Artanudji, 2008, 186; Vaxuşti Baqrationi, a.g.e.,129.
[17] D.L. Musxelişvili, *İz istoriçeskoy qeoqrafii Vostoçnoy Qruzii,* Tbilisi, Metsniereba, 1982, 51.
[18] *Kartlis tsxovreba, (İstoriya Qruzii*), 186.

Davidin mindiyi üç at öldürülmüş və o, dördüncü atın belində döyüşü qələbə ilə başa vurmuşdu.[19]

Ersuxi savaşında Şəki/Hereti feodallarının iştirak edib-etməməsinə dair mənbələrdə heç bir məlumata rast gəlinməmişdir. Bununla belə, Şəki çarlığının taleyinin həll olunduğu bu savaşda Şəki/Hereti feodallarının kənarda, seyirci mövqeyində qaldıqlarını da söyləmək sadəlövlük olardı. Ən azından çar II Axsartanı yaxalayıb gürcü çarına təhvil verən Şəki feodallarının Qurucu Davidi, savaşdan sonra da uzun müddət gürcü çarına müqavimət göstərmiş Kiş qalası hakimlərinin isə Gəncə atabəyi və Kaxeti feodallarını dəstəklədikləri şübhə doğurmur.

Ersuxi savaşından sonra Şəki (Hereti-Kaxeti) çarlığında qalaları və hərbi istehkamları bir-birinin ardınca ələ keçirən Qurucu David ölkənin böyük hissəsində hakimiyyətini möhkəmləndirdi.[20] Lakin Şəki şəhəri və Kiş qalası daxil olmaqla Şəki/Hereti ölkəsinin bir hissəsi gürcü çarına qarşı mübarizəni davam etdirirdi. Qurucu David yalnız 13 ildən sonra - 1117-ci ildə çətinliklə Kiş qalasını tuta bildi. Gürcü mənbəsinə görə, çar David Kiş qalasının hakimləri Qriqolun oğulları Asam və Şotanı özünə tabe edərək qalanı tutdu.[21] Şəki şəhərindən bir qədər şimalda yerləşən Kiş qalasının tutulması ilə Şəki/Hereti ölkəsinin işğalı tamamilə başa çatdırılmış oldu.

Beləliklə, qədim Albaniyanın varisi kimi, Şimal-Qərbi Azərbaycan torpaqlarında yaranmış və 230 ildən çox mövcud olan Şəki çarlığı süqut etdi. Azərbaycanın (Albaniya) şimal-qərb torpaqları Abxaz-Kartli çarlığının tərkibinə qatıldı. XII əsrdə qonşu Azərbaycan torpaqlarının işğalı nəticəsində ərazisi genişlənmiş gürcü çarlığı[22] hərbi-inzibati dairələrə - eristavlıqlara (“eristav” - xalq, ordu başçısı) bölünmüşdü[23] Şəki (Hereti-Kaxeti) çarlığının 1117-ci ildə tam işğal olunaraq gürcü çarlığının tərkibinə qatılmasından sonra, bu keçmiş Azərbaycan çarlığının ərazisində iki hərbi-inzibati dairə: Hereti eristavlığı və Kaxeti eristavlığı yaradılmışdı. Gürcü mənbələrində “herlərdən və kaxlardan” ibarət birgə qoşun bölmələri haqqında qeydlərə tez-tez rast gəlinsə də[24], Hereti ayrıca eristavlıq kimi qeyd olunur.[25] Müvafiq dövrdə Şəki eristavlığı qərbdə Sivi yüksəkliyi, Turdo və Ştori çaylarından şərqdə Qəbələ rustakınadək, cənubda isə

---

[19] *Kartlis tsxovreba*, 328-329.

[20] *Kartlis tsxovreba*, 329.

[21] *Kartlis tsxovreba*, (İstoriya Qruzii), s. 189; *Kartlis tsxovreba*, 334.

[22] K.S. Kekelidze, *Sotsialno-politiçeskoye i kulturnoye sostoyanie Qruzii v epoxu Rustaveli, Etyudı po istorii drevneqruzinskoy literaturı*, t, XII, Tbilisi, 1973, 33.

[23] D.L. Musxelişvili, a.g.e., 60.

[24] *Kartlis tsxovreba*, 345. *İstoriya i vosxvaleniye ventsenostsev*, Qruzinskiy tekst perevel, predisloviyem i primeçaniyami snabdil K.S. Kekelisdze, Tbilisi, AN QruzSSR, 1954, 27, 58, 81.

[25] *İstoriya i vosxvaleniye ventsenostsev*, a.g.e., 24, 28, 29, 39, 48, 52.

Kür çayınadək (Kambisena) əraziləri əhatə edirdi (bax: XIII əsrin əvvəllərində Gürcüstan xəritəsi[26]).

İşğaldan sonra, Qurucu David, özünün "abxazlar və kartvellər çarı" tituluna "ranların və kaxların çarı" titulunu da əlavə etdi. Bəzən isə "ranların/albanların çarı" əvəzinə "herlərin çarı" formasından da istifadə olunurdu. Məsələn, Qurucu David XII əsrin əvvəllərində verdiyi fərmanlarından birində özünü "abxazların və kartvellərin, ranların və kaxların çarı" adlandırır.[27] T.Q. Papuaşvilinin verdiyi məlumata görə, bir xaç üzərində aşkar olunmuş yazıda Qurucu David "abxazlar və kartvellər, herlər və kaxlar çarı" kimi qeyd olunmuşdur[28]. M. Toduaya istinad edən D.L. Musxelişvili məlumat verir ki, Təbrizdə aşkar edilmiş "məktub nümunələri məcmuəsi"ndəki bir əlyazmada (1219-cu ilə aid) Qurucu David "Abxaz, Şəki, Alan və Rus çarlar çarı"; digər sənəddə adı çəkilməyən gürcü çarı "Gürcü, Abxaz, Alan, Şəki və Xəzər çarlar çarı"; üçüncü sənəddə isə çariçə Tamarın oğlu çar Georgi-Laşa "Abxaz, Şəki və Alan çarlar çarı" kimi qeyd edilir.[29] Təbrizdə aşkar edilmiş məktublardan da bəlli olduğu kimi, burada "Şəki" dedikdə Şəki/Hereti və Kaxeti torpaqları nəzərdə tutulurdu. Sumbat Davitisdze istisna olmaqla[30], digər orta əsr gürcü mənbələrində "Şəki" toponiminə rast gəlinmir. Bir qayda olaraq, Hereti və Kaxeti əvvəllər olduğu kimi, yenə də İslam şərqində və bəzi erməni mənbələrində məhz Şəki adlanırdı. XII əsr görkəmli Azərbaycan şairi Fələki Şirvani gürcü çarı I Demetrenin ölümünə yazdığı qəsidəsində onu "Abxaz və Şəki şahlar şahı" adlandırırdı.[31] XIII əsrin birinci yarısında monqol yürüşlərindən bəhs etmiş Rahib Makagiya isə mərkəzləşdirilmiş gürcü çarlığını "Kartli və Aqvaniya" adlandırırdı.[32]

1104-1117-ci illərdə bəzi yerli Şəki (Hereti) feodal qruplarının köməkliyi ilə Şəki çarlığının ərazisini ələ keçirən Qurucu David onun hakimiyyətini qəbul etmiş feodallarla, xüsusilə də yerli əhali ilə mülayim rəftar edirdi.[33] Ümumiyyətlə, ələ keçirdiyi ölkələrdə "adil hökmdar" kimi tanınmaq Qurucu Davidin yeritdiyi siyasətin mühüm tərkib hissəsi olub[34], işğal olunmuş ərazilərdə öz hakimiyyətinin

---

[26] *Kartlis tsxovreba,* (İstoriya Qruzii), 312-313.

[27] İ. Tsintsadze, *Çar Davidin Fərmanları, Arxiv Qruzii*, k. II, Tbilisi, 1927 (gürcü dilində), 16.

[28] T.Q. Papuaşvili, *Ereti tarixi soruları*, Tbilisi, Metsniereba, 1970, (gürcü dilində), 236.

[29] D.L. Musxelişvili, a.g.e., 60.

[30] Sumbat Davitisdze. *İstoriya i povestvovaniye o Baqrationax*. Perevod, vvedeniye i primeçaniya M.D. Lordkipanidze, Tbilisi, Metsniereba, 1979.

[31] Z. M. Buniyatov, *Qruziya i Şirvan v pervoy polovine XII veka, Qruziya v epoxu Rustaveli*, Tbilisi, Metsniereba, 1966, 289.

[32] İnok Maqakiya. *İstoriya naroda strelkov (monqolov). O tom, otkuda on yavilsya, i kakim obrazom podçinil sebe mnoqiye stranı i oblasti (per. K.P. Patkanova). İstoriya monqolov inoka Maqakii, XIII veka.* M. 1871, 5, 9-10,12, 20.

[33] *Kartlis tsxovreba*, 329.

[34] *Kartlis tsxovreba*, 345.

gücləndirilməsinə xidmət edirdi. Gürcü mənbəsi "Georgi Laşa dövrünün salnaməsi"ndə qeyd olunurdu: "Böyük David Tiflisi alıb, Hereti və Kaxetini birləşdirənədək, əhali yalnız qalalarda və şəhərlərdə məskunlaşmışdı. David isə Heretidə, Somxitidə, Taşirdə, Cavaxetidə, Aşağı və Yuxarı Artanidə, həmçinin Taonun sərhədyanı vilayətlərində həyatı canlandırdı".[35]

Qurucu David keçmiş Şəki çarlığı əhalisindən (mənbədə herlər və kaxlar) ibarət böyük qoşun dəstələri düzəldərək öz ordularının tərkibinə daxil etmişdi. Gürcü mənbəsindən oxuyuruq: "Şirvandakı bütün qala və şəhərlərə herlərdən və kaxlardan ibarət qoşun hissələrini yerləşdirdi".[36] Orta əsr gürcü mənbələrindən məlum olur ki, XIII əsrin əvvəllərinədək, yəni monqol yürüşlərinədək "məğlubedilməz" Gürcüstan qoşunlarının həyata keçirdiyi, demək olar ki, bütün hərbi əməliyyatlarda keçmiş Şəki çarlığı əhalisindən toplanmış qoşun bölmələri fəal surətdə iºtirak etmiºdilər.

Azərbaycanın şimal-qərb torpaqlarının, yəni Şəki (Hereti-Kaxeti) çarlığının işğalı Qurucu Davidin qonşu ölkələrin ərazilərini ələ keçirmək siyasətinin yalnız başlanğıcı idi. 1117-ci ildən etibarən gürcü qoşunlarının Şirvana qarətçi yürüşləri başlandı.[37] Şəki və Şirvan torpaqlarının işğalı siyasətini həyata keçirməyə çalışan Qurucu David səlcuq türkləri ilə qarşılaşmalı oldu. Qurucu Davidin qüvvələri, yeni təşkil etdiyi ordusu və hətta ələ keçirdiyi ölkələrdən topladığı qoşunlar kifayət qədər olmayıb, səlcuqlara qarşı mübarizəni uğurla başa çatdırmağa imkan vermirdi. Səlcuq imperatorluğunun hərbi qüvvələri qarşısında aciz qalan gürcü çarı "türkü türkün əli ilə məğlub etmək" siyasətinə əl atdı. O, səlcuq türklərinə qarşı kömək almaq üçün qıpçaq türklərinə müraciət etdi. Gürcü mənbəsinin verdiyi məlumata görə, Qurucu David qıpçaq hökmdarı Atrakın qızı Quranduxt ilə evlənmişdi. O, öz elçilərini qayınatasının yanına göndərərək səlcuqlara qarşı mübarizədə ona yardım etməsini xahiş etmişdi: "David bütün Qafqazın və Osetiyanın qapısı olan Dəryal qalasını açdı və bu təhlükəsiz yoldan qayınatası və qayınlarının daxil olduğu böyük qıpçaq ordusu Gürcüstana gəldi. Qadın və uşaqlar nəzərə alınmadan, qıpçaq ordusu 40 min nəfərdən ibarət idi. Çar onları silahlandırdı və hər birinə at verildi. Çar qıpçaqları öz ailələri ilə birlikdə rahat yerlərdə yerləşdirdi".[38] O.Suleymanova görə, Quranduxt (Turandoxtə - Turanlı qız) məşhur qıpçaq sərkərdəsi Konçakın bacısı idi.[39] Ş.A. Mesxiaya görə, qıpçaqların Gürcüstana gəlişi 1118-1120-ci illər arasında baş vermişdi.[40] Qurucu David səlcuqlara qarşı köməyə çağırdığı qıpçaq türklərinin bir hissəsini yenicə işğal etdiyi Azərbaycan torpaqlarında - Şəki/Hereti ərazisində yerləşdirmişdir.[41]

---

[35] *Kartlis tsxovreba*, İstoriya Qruzii, a.g.e., 213.
[36] *Kartlis tsxovreba*, 345.
[37] *Azərbaycan tarixi*, I cild, "Azərnəşr", Bakı, 1994, 295.
[38] *Kartlis tsxovreba*, 337.
[39] O. Suleymanov, *Az-ya*, Azərnəşr, Bakı, 1993, 118.
[40] Ş.A. Mesxia, a.g.e., 66.
[41] K.A. Çxatarayşvili, *Voinı-inozemtsı v qruzinskom voyske XII veka, Qruziya v epoxu Rustaveli*, Tbilisi, Metsniereba, 1966, 305.

Gürcüstana gəlmiş 40 minlik qıpçaq ordusu çariçə Tamarın hakimiyyətinədək (1184-1213) ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmişdilər.[42] Qıpçaqlar Gürcüstan ordusunun döyüş qabiliyyətinin yüksəldilməsində həlledici rol oynadılar. Qıpçaqlardan real qüvvə alan Qurucu David səlcuqlara ciddi zərbələr endirmək, habelə qonşu dövlətləri özünə tabe etmək istiqamətində fəal hərbi əməliyyatlara başladı.

Qurucu Davidin ölümü (24.01.1125) ilə onun Şirvanla bağlı işğalçılıq planları yarımçıq qaldı. Bundan sonra Şirvanda yerləşdirilmiş herlərdən və kaxlardan ibarət qarnizonlar Şirvanı tərk etməyə məcbur oldular.[43] Gürcü mənbələrinə görə, Qurucu Davidin işğalları nəticəsində Çaqan-usun çayınadək (D.L. Musxelişviliyə görə, müasir Ağsu çayı[44]) guya xristian əhalinin çoxluq təşkil etdiyi Qərbi Şirvan torpaqları Şəki/Hereti eristavlığına qatılmışdı.[45]

---

[42] *İstoriya i vosxvaleniye ventsenostsev*, 36-37. N. Berdzenişvili, İ. Cavaxişvili, S. Janaşia, a.g.e., 211.

[43] Y.M. Mahmudlu, *Azərbaycan tarixi..*, 22.

[44] D.L. Musxelişvili, a.g.e., 58.

[45] *Kartlis tsxovreba*, c. II, Tbilisi, 1959, (gürcü dilində), 251.

## Nəticə

Beləliklə, bəhs olunan dövrdə Abxaz-Kartli çarlığından fərqli olaraq, Şəki (Hereti-Kaxeti) çarlığı mövcudluğunun sonunadək - 1104-cü lədək səlcuqların vassal asılılığında olub onlara illik xərac ödəyirdi. Qonşu Abxaz-Kartli çarlığında baş verən proseslər isə təsirsiz qalmadı. Belə vəziyyət zəif iradəli və ölkə daxilində heç bir nüfuzu olmayan Şəki hökmdarı II Axsartanın vəziyyətini daha da ağırlaşdırmış, ölkədə səlcuq ağalığına son qoyulmasında maraqlı olan, eyni zamanda hakim Kvirikelər sülaləsinin mövcud problemləri aradan qaldıracağına inamını itirmiş iri feodal qruplaşmaları çarlığın varlığına son qoyacaq qəsdə qərar vermiş, Şəki hökmdarı II Axsartanı yaxalayıb Qurucu Davidə təhvil vermişdilər.

Qurucu Davidin Şəki çarlığının ələ keçirilməsi onun daha da güclənməsinə və səlcuqların regiondakı mövqelərinin zəifləməsinə səbəb ola bilərdi. Bu səbəbdən gürcü çarının qarşısını kəsmək məqsədilə Gəncə atabəyi qoşununu Şəki ölkəsinə yeritmiş, lakin Ersuxi savaşında Qurucu David səlcuqlar üzərində ilk böyük qələbəsini qazana bilmişdi. Bununla belə, Şəki/Hereti feodallarının mühüm hissəsinin Qurucu Davidin hakimiyyəti altına düşmək istəməməsi və uzun müddət (1104-1117) ona qarşı müqavimət göstərməsi səbəbindən Qurucu David yalnız 13 ildən sonra - 1117-ci ildə çətinliklə Kiş qalasını tutaraq Şəki ölkəsinin işğalını başa çatdırılmış oldu. Nəicədə Albaniyasının varisi kimi, Şimal-Qərbi Azərbaycan torpaqlarında yaranmış və 230 ildən çox mövcud olan Şəki çarlığı süqut etdi. Azərbaycanın (Albaniya) şimal-qərb torpaqları Abxaz-Kartli çarlığının tərkibinə qatılmış, bu keçmiş Azərbaycan çarlığının ərazisində iki hərbi-inzibati dairə: Şəki/Hereti eristavlığı və Kaxeti eristavlığı yaradılmışdı. Qurucu David keçmiş Şəki çarlığı əhalisindən (mənbədə herlər və kaxlar) ibarət böyük qoşun dəstələri düzəldərək öz ordularının tərkibinə daxil etmişdi. Gürcü mənbələrindən məlum olur ki, XIII əsrin əvvəllərinədək, yəni monqol yürüşlərinədək "məğlubedilməz" Gürcüstan qoşunlarının həyata keçirdiyi, demək olar ki, bütün hərbi əməliyyatlarda keçmiş Şəki çarlığı əhalisindən toplanmış qoşun bölmələri fəal surətdə iştirak etmişdilər.

## İstifadə olunmuş ədəbiyyat


### Azərbaycan dilində

*Azərbaycan Tarixi*, I cild, Bakı, "Azərnəşr", 1994.

MAHMUDLU Y.M. *Azərbaycan Tarixi İntibah Dövrü*, Bakı, Altay dünyası, 1996.

MAHMUDLU Y.M. "Kitabi-Dədə Qorqud" Tarixi Mənbə Kimi və ya Türkün Çağlayan Tarix Bulağı", *Altay Dünyası*, 1997, № 1-2.

*Orta Əsrlər Tarixi*, Tərcümə edəni Y.M. Mahmudov, Bakı, Təhsil, 1986.
Suleymanov O. Az-ya, Bakı, Azərnəşr, 1993.

ŞIRINBƏY HACIƏLI, *Şimal-Qərbi Azərbaycan: İngiloylar*, Bakı, Təhsil, 2007.

### Türk dilində

Öztuna Yılmaz, *İslam Devletleri*, c. I, Kültür Bakanlığı Yayınları, Ankara, 1989.

### Gürcü dilində

*KARTLIS TSXOVREBA*, c. I, Bütün əsas əlyazmalar üzrə nəşrə hazırladı S.Q. Kauxçişvili, Tbilisi, Saxelqami (Qosizdat), 1955, (gürcü dilində).

*KARTLIS TSXOVREBA*, c. II, Bütün əsas əlyazmalar üzrə nəşrə hazırladı S.Q. Kauxçişvili, Tbilisi, Qosizdat Sabçota Sakartvelo, 1959, (gürcü dilində).
T.Q. PAPUAŞVILI, *Ereti Tarixi Soruları*, Tbilisi, Metsniereba, 1970, (gürcü dilində).

İ. TSINTSADZE, *Çar Davidin Fərmanları, Arxiv Qruzii*, k. II, Tbilisi, Saxelqami (Qosizdat), 1927, (gürcü dilində).

### Rus dilində

BERDZENIŞVILI N., Cavaxişvili İ., Janaşia S. *İstoriya Qruzii*, ç. I, S drevneyşix vremen do naçala XIX veka, Tbilisi, İzdatelstvo Qruzinskoy SSR, 1946.
BUNIYATOV, Z. M. *Qruziya i Şirvan v pervoy polovine XII veka, Qruziya v epoxu Rustaveli,* Tbilisi, Metsniereba, 1966.

VAXUŞTI B., *İstoriya tsarstva Qruzinskoqo*. Perevel, snabdil predisloviyem, slovaryami i ukazatelem N.T. Nakaşidze, Tbilisi, Metsniereba, 1976.

QRIQOLIYA, K. *O çem povedala "Kartlis Tsovreba*. Tbilisi, Qanatleba, 1973.

İNOK, M., *İstoriya naroda strelkov (monqolov). O tom, otkuda on yavilsya, i kakim obrazom podçinil sebe mnoqiye stranı i oblasti* (per. K.P. Patkanova). İstoriya monqolov inoka Maqakii, XIII veka. Moskva. 1871.

*İstoriya i vosxvaleniye ventsenostsev, Qruzinskiy tekst perevel, predisloviyem i primeçaniyami snabdil K.S. Kekelisdze*, Tbilisi, AN QruzSSR, 1954.

*Kartlis tsxovreba, İstoriya Qruzii,* Tbilisi, İzdatelstvo Artanudji, 2008.
Kekelidze K.S. Sotsialno-politiçeskoye i kulturnoye sostoyanie Qruzii v epoxu Rustaveli, Etyudı po istorii drevneqruzinskoy literaturı, t, XII, Tbilisi, 1973.

MESXIA, Ş.A. *Didgorskaya bitva*, Tbilisi, Metsniereba, 1974.
Musxelişvili D.L. *İz istoriçeskoy qeoqrafii Vostoçnoy Qruzii*, Tbilisi, Metsniereba, 1982.

SUMBAT, D.,. *İstoriya i povestvovaniye o Baqrationax*. Perevod, vvedeniye i primeçaniya M.D. Lordkipanidze, Tbilisi, Metsniereba, 1979.

ÇXATARAYŞVILI, K.A., *Voinı-inozemtsı v qruzinskom voyske XII veka, Qruziya v epoxu Rustaveli,* Tbilisi, Metsniereba, 1966.